# AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT İMTAHAN MƏRKƏZİ

Dövlət qulluğu vəzifələrinin tutulması məqsədilə keçirilən müsahibədə iştirak edən namizədin

# YADDAŞ KİTABÇASI

Müsahibə otağına aşağıdakılarla daxil olmaq qadağandır:



Müsahibə otağına giriş zamanı üzərində mobil telefon və digər rabitə vasitələri, konspekt və başqa yardımçı vasitələr olmamalıdır.

**2022**

**Hörmətli namizəd!**

Mövcud olan məlumatlara əsasən COVID-19 insanlar arasında birbaşa hava-damcı yolu ilə və ya dolayı yolla kontaminasiya olunmuş səthlərə təmasdan sonra əllərlə ağız boşluğuna, gözlərə, buruna və s. toxunduqda ötürülür.

**Bu virusa yoluxmamaq üçün aşağıdakılara əməl etməyiniz tövsiyə olunur:**



Əllərinizi sabunlu su ilə yuyun və ya dezinfeksiyaedici məhluldan istifadə edin



Üz maskası taxın



Əllərinizlə göz, burun və ağzınıza toxunmayın



Əl ilə görüşməyin



Sosial məsafə (2 metr) saxlayın



Öskürəndə və asqıranda ağzınızı kağız salfet və ya dirsəyinizin iç tərəfi ilə örtün



Əllərinizlə səthlərə təmas etməyin, qapı dəstəklərinə və tutacaqlara toxunmayın




COVID-19-a spesifik olan əlamət(lər) (qızdırma, quru öskürək, nəfəs darlığı, ishal və s.) olduğu halda evdən çıxmayın və tibbi xidmətin göstərilməsi üçün 103 TTTY müraciət edin

***Hörmətli namizəd!***

Məqsədimiz biliklərinizi nümayiş etdirmək üçün Sizə bərabər şərait yaratmaq, müsahibələrdə şəffaflığı, aşkarlığı və obyektivliyi təmin etməkdir. Müsahibədə uğur qazanmaq üçün Siz yüksək bilik, səriştə və bacarıq nümayiş etdirməklə yanaşı bu “Yaddaş kitabçası”nda göstərilənləri mütləq nəzərə almalı və müsahibənin keçirilmə qaydalarına əməl etməlisiniz.

## NAMİZƏDLƏR MÜSAHİBƏDƏ İŞTİRAK ETMƏK ÜÇÜN AŞAĞIDAKILARI NƏZƏRƏ ALMALIDIRLAR:

1. Namizəd müsahibə vaxtından ən azı 30 dəqiqə əvvəl göstərilən ünvanda olmalı, şəxsiyyətini təsdiq edən sənədin əslini (şəxsiyyət vəsiqəsi, müvəqqəti şəxsiyyət vəsiqəsi və ya ümumvətəndaş pasportu) mütləq təqdim etməli, müsahibəyə qoşulmaq üçün FİN kod və şəxsi kabinetinin şifrəsini bilməlidir.
2. **Aşağıdakı hallarda namizəd müsahibəyə buraxılmır:**
   - tələb olunan sənədlərdən biri olmadıqda və ya sənədlər arasında uyğunsuzluq olduqda;
   - saxta sənəd təqdim etdikdə;
   - müsahibənin aparılacağı yerə müəyyən edilmiş vaxtda gəlmədikdə;
   - müsahibə otağına gətirilməsi qadağan edilmiş əşyalarla daxil olmağa cəhd etdikdə.
3. Namizəd sənədləri müsahibə binasının giriş qapısında buraxılış rejimini həyata keçirən mühafizə əməkdaşlarına təqdim edib yoxlamadan keçdikdən sonra müsahibə otağının yerini öyrənir.

***Namizədlərin nəzərinə:***

1. Müsahibənin nəticəsi haqqında məlumat müsahibənin keçirildiyi gün saat 18:00-dan etibarən Dövlət İmtahan Mərkəzinin internet portalında (www.dim.gov.az), namizədin şəxsi kabinetində yerləşdirilir.
2. Namizədlər mərkəzi icra hakimiyyəti orqanları üzrə keçirilən müsahibənin nəticələrindən həmin orqanlarda yaradılmış apellyasiya şuralarına, məhkəmə hakimiyyəti orqanlarının və Azərbaycan Respublikasının Məhkəmə-Hüquq Şurasının aparatı üzrə keçirilən müsahibənin nəticələrindən isə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində yaradılmış Apellyasiya Şurasına şikayət verə bilərlər. Eyni zamanda, namizədlər müsahibənin nəticələrindən Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurasına və məhkəməyə şikayət verə bilərlər.
3. Müsahibə komissiyası üzvlərinin namizədin qiymətləndirilməsi zamanı verdiyi ümumi ballar arasında müsahibə nəticəsinə təsir edən fərq (3 və daha çox bal) olduqda, müsahibənin nəticəsi etibarsız hesab edilir. Bu halda müsahibənin nəticələrinə **namizədin müraciəti əsasında** yuxarıdakı bənddə qeyd edilənlərə uyğun olaraq müvafiq qurumda baxılır.

**NAMİZƏDƏ QADAĞANDIR:**

1. Müsahibəyə özünün yerinə başqasını göndərmək;
2. Müsahibə otağına mobil telefon və digər rabitə vasitələri, elektron cihazlar, kalkulyator, elektron məlumat daşıyıcısı, kitab, dəftər, jurnal, konspekt, məlumat kitabçası, çanta və digər yardımçı vasitələr gətirmək və onlardan istifadə etmək;
3. Yandırıcı, partlayıcı, kəsici, deşici və digər bu növ əşyalarla müsahibə otağına girmək;
4. Müsahibə başlandıqdan sonra üzrlü səbəb olmadan müsahibə otağını tərk etmək;
5. Nizam-intizam qaydalarını pozmaq.

***Sizə müvəffəqiyyətlər arzulayırıq!***